**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT HAKİMİYYƏTİ ORQANLARI VƏ ÖZƏL SEKTORUN TƏRƏFDAŞLIĞI: MÜASİR İNKİŞAF MODELLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5909.01 – Dövlət idarəçiliyi |
| Elm sahəsi: | siyasi elmlər |
| İddiaçı: | **Vüsal Hüsnü oğlu Quliyev** |

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** siyasi elmlər doktoru, professor
**Ziyafət Ziya qızı Həbibova**

**Rəsmi opponentlər:** siyasi elmlər doktoru, professor əv.
**Elşad Mirbəşir oğlu**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ramid Söhbət oğlu Hüseynov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Həmdulla Firudin oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, professor
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, professor
**Aqiyə Həbib qızı Naxçıvanlı**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dövlət-özəl tərəfdaşlığı dövlət orqanları və özəl sektor arasında qarşılıqlı münasibətlərin yeni inkişaf mərhələsinə doğru irəliləməsi üçün şərait yaradan unikal alətdir.

Xarici qanunvericilik özəl sektor istqamətinin prioritetliyini qeyd edərək dövlət-özəl tərəfdaşlığı anlayışını irəli sürmüş və bu münasibətdə dövlət üzərində məhz özəl sektoru prioritet göstərmişdir. Dövlət-özəl tərəfdaşlığı sosial əhəmiyyətli layihələrin həyata keçirilməsində dövlət və özəl sektorun tərəfdaşlığına faydalı və əhəmiyyətli əməkdaşlıq kimi baxır. Lakin bu əməkdaşlıq fərqli formalarda həyata keçirilir.

Geniş mənada dövlət-özəl tərəfdaşlığı dedikdə, təkcə iqtisadiyyatda deyil, həm də siyasətdə, mədəniyyətdə və elmdə hakimiyyət və özəl strukturların istənilən rəsmi konstruktiv qarşılıqlı fəaliyyəti başa düşülür. Dar mənada dövlət-özəl tərəfdaşlığı dedikdə, ümumdövlət əhəmiyyəti olan sosial əhəmiyyətli layihələrin reallaşdırılması prosesində hakimiyyət və özəl sektorun qarşılıqlı fəaliyyəti başa düşülür.

Dövlət hakimiyyəti orqanları ilə özəl sektor arasında qarşılıqlı əlaqələr probleminə olan elmi maraq iqtisadi və siyasi sistemlərdəki əsas təmayüllərlə bağlı bir sıra amillərlə şərtlənmişdir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti orqanları və özəl sektor arasında qarşılıqlı əlaqələrin səciyyəvi modellərinin formalaşması iqtisadiyyatda islahatların uğurluluğunun aparıcı amillərindən biridir və nəticədə, iqtisadi artım sürətinin yüksəlməsinə və həmçinin, siyasi sistemin fəaliyyətinin səmərəliliyinə təsir göstərir.

Lakin dövlət hakimiyyəti orqanları ilə özəl strukturların qarşılıqlı əlaqələrinin bu və ya digər modellərinin formalaşması ölkənin əvvəlki inkişaf təcrübəsindən, mövcud siyasi mədəniyyətdən və yaranmış sosial, iqtisadi və siyasi institutlardan asılıdır.

Dövlət-özəl tərəfdaşlığının qarşılıqlı əlaqələri probleminə olan maraq həmçinin idarəetmə vəzifələri ilə də bağlıdır. Bu qarşılıqlı əlaqələrin səmərəli modelinin yaradılması bu cür qarşılıqlı əlaqələrin müvafiq institusional əsaslarının formalaşdırılmasını, həmçinin

onların təcrübədə gerçəkləşdirilməsi mexanizmlərinin işlənilməsini tələb edir.

Hal-hazırda dövlət-özəl tərəfdaşlığının qarşılıqlı əlaqələrinin institusionallaşmasının, həmçinin onların qarşılıqlı əlaqələrinin səmərəli mexanizmlərinin yaradılmasının zəruriliyi məsələsi gündəmdədir. Azərbaycanda və inkişaf etmiş ölkələrdə dövlət-özəl tərəfdaşlığı ciddi problemlərlə üzləşməkdədir. Bunlar özünü hüquqi bazada olan qüsurlarda, tərəfdaşlıq münasibətlərinin reallaşdırılması istiqamətində forma və metodların təkmil olmamasında, səmərəli əməkdaşlıq üçün rəqabət şəraitinin yoxluğunda, sərmayə və innovasiya mühitinin inkişaf etməməsində və s. büruzə verir.

Dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı əlaqələrin institutlarından biri biznes-birliklərdir. Qloballaşma şəraitində ictimai-siyasi və sosial-iqtisadi həyatda onların yeri və rolu daim artmaqdadır. Bu institutun dinamik inkişaf etməsi ilə əlaqədar olaraq, yeni empirik tədqiqatın aparılması, özəl strukturların və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı əlaqələrinin səmərəliliyinin biznes-birliklər vasitəsilə təhlili, həmçinin bu mexanizmin təkmilləşdirilməsi üçün zəruri şəraitin təsvir edilməsi aktuallıq kəsb edir.

Dövlət-özəl tərəfdaşlığının qarşılıqlı əlaqələri ilə bağlı yerli və xarici təcrübənin araşdırılması yalnız müəyyən siyasi-hüquqi və sosial-iqtisadi mühit şəraitində səmərəli olan qarşılıqlı təsir mexanizmlərini təhlil etməyə imkan verir. Dövlət-özəl tərəfdaşlığının qarşılıqlı təsiri üzrə xarici nümunələrin öyrənilməsi bu cür qarşılıqlı təsir təcrübəsindən Azərbaycan Respublikasında da istifadənin mümkün olub-olmamasını başa düşməyə imkan verə bilər.

Bütün bu məsələlər Azərbaycan Respublikasında dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında tərəfdaşlığın müasir modellərinin əhəmiyyətinin öyrənilməsinin mühüm səciyyə daşıdığını şərtləndirir.

Deyilənlər hazırkı dissertasiya işi mövzusunun aktuallığını müəyyən edir. Tədqiqat işində araşdırılan məsələlərin aktuallığı onların bundan sonra da tədqiqatçılar tərəfindən tədqiq olunacağını güman etməyə əsas verir.

Dissertasiya işinin əsasını Azərbaycan və dünya tədqiqatçılarının tədqiq edilən problematika üzrə elmi əsərləri təşkil edir. Hazırda dünya miqyasında dövlət və özəl strukturlar arasında tərəfdaşlıq üzrə çoxlu sayda tədqiqat işləri dərc olunmuşdur. Lakin Azərbaycanda özəl strukturların və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti, habelə özəl strukturların müasir vəziyyətinin qiymətləndirilməsi: perspektivlər və mənfi meyillərlə bağlı məsələlər demək olar ki, araşdırılmamışdır.

İqtisadi ədəbiyyatda dövlət və özəl sektorun tərəfdaşlığı ilə bağlı müxtəlif elmi-nəzəri baxışlar vardır.

Ə.Əlirzayev tərəfindən Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları araşdırılmışdır[1]. S.Abbasov dövlət və xüsusi biznesin tərəfdaşlığında təcrübə və perspektiv məsələləri təhlil etmişdir[2]. R.İsgəndərov və F.Rzayev Aqrar-sənaye innovasiyaları üzrə dövlət-özəl bölmə tərəfdaşlığı layihələrinin tənzimlənməsi sisteminin əsas səciyyəvi xüsusiyyətlərinin müqayisəli təhlilini vermişlər[3].

Dövlət hakimiyyəti orqanları ilə özəl sektor arasındakı qarşılıqlı əlaqələrin dinamikası A.Bentli, D.Trumen, R.Dal, F.Şmitter və M.Olsonun əsərlərində öz əksini tapmışdır[4]. A.Bentlinin fikrincə, dövlət-özəl tərəfdaşlığı - ictimai nemətlərin yaradılması, yaxud ictimai xidmətlərin göstərilməsi üçün uzunmüddətli və qarşılıqlı faydalılıq əsasında cəmiyyətin və özəl sektorun maddi və qeyri-maddi resurslarının birləşdirilməsidir[5].

Q.Lembruxun müəyyənləşdirməsinə görə, dövlət-özəl tərəfdaşlığı - ictimai əhəmiyyətli layihələrin, sənaye sahələrinin, tədqiqat və konstruktor işlərinin (ETKİT) geniş spektrdə

---

[1] Əlirzayev Ə, İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər. Bakı, "Adiloğlu", 2005, 538 s.

[2] S. Abbasov. Dövlət - xüsusi biznes tərəfdaşlığı: nəzəriyyə, təcrübə və perspektivlər. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2019 (iyul-avqust) səh. 5-10.

[3] R.K. İsgəndərov, F.B. Rzayev. Aqrar-sənaye innovasiyaları üzrə dövlət-özəl bölmə tərəfdaşlığı layihələrinin tənzimlənməsi sisteminin xarakteristikası. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 3 (33) s.41-50 https://agroeconomics.az/pdf/3.pdf

[4] Bentley 1967; Truman 1951; Dahl 1971; Schmitter 1974; Olson 1995

[5] Bentley A. The process of Government. A study of social pressures. Cambridge, 1967, s.111

proqramlarının reallaşdırılması məqsədilə dövlət və özəl sektor arasında strateji, institusional və təşkilati alyansdır[6].

A.A.Yakovlevin nöqteyi-nəzərincə, "Dövlət-özəl tərəfdaşlığı sosial-iqtisadi inkişafın qlobal və lokal məsələlərinin həllinə yönəldilmiş dövlət və özəl sektor arasında qarşılıqlı fəaliyyətin bütün spektrini ifadə edir[7].

N.V.Petrov dövlət-özəl tərəfdaşlığı kateqoriyasının ən geniş mülahizəsini verir. Onun fikrincə, dövlət-özəl tərəfdaşlığı ölkənin sosial-iqtisadi inkişafının strateji məsələlərinin həlli məqsədilə vahid kompleksdə dövlət və özəl sektorun resurslarının və onların müxtəlif mənbələrinin effektiv bölməsinə yönəldilmiş, eləcə də iqtisadiyyatın real sektoruna investisiyanın cəlb edilməsi üçün zəruri şəraitin formalaşdırılmasına imkan verən maliyyə, hüquqi, sosial və siyasi amillərin qarşılıqlı fəaliyyətindən ibarət dövlət və özəl sektorun institusional və təşkilati alyasını ifadə edir[8].

N.Y.Lapina mövzu ilə bağlı rəyində qeyd edir ki, dövlət və özəl sektor qarşılıqlı fəaliyyətinin ümumi sistemində dövlət-özəl tərəfdaşlığının mahiyyətinin müəyyənləşdirilməsi barədə fikir ayrılığı var. O, sözügedən kateqoriyaya geniş və dar mənada baxmağı təklif edir[9].

R.F.Turovski dövlət-özəl sektorun tərəfdaşlığına cəmiyyətin maraqlarının ödənilməsi məqsədilə dövlətin, yerli idarəetmə orqanlarının və sahibkarlıq strukturlarının birgə fəaliyyətinin təşkilinə yönəldirilmiş formal və qeyri-formal qaydaların məcmusuna əsaslanan institut kimi baxmağı təklif edir[10].

Lakin qeyd etmək lazımdır ki, bu sahədə müəyyən əsərlərin olmasına baxmayaraq, dövlət və özəl sektor arasında qarşılıqlı

---

[6] Lembruch G., Schmitter P. Trends Towards Comporativs Intermediation. Beverly Hills and L., 1979, s 33

[7] Яковлев А.А. Агенты модернизации. М.: ГУ-ВШЭ, 2006, 425 с.

[8] Петров Н.В. От федерации корпораций к федерации регионов // PRO ET CONTRA. 2012. Т. 16. № 4-5, s.6

[9] Лапина Н.Ю. Модели взаимодействия бизнеса и власти в российских регионах и типы предпринимательского делового поведения // Российское предпринимательство: Стратегия, власть, менеджмент. М.: Институт социологии РАН, 2000, с. 45-55

[10] Туровский Р.Ф. Центр и регионы. Проблемы политических отношений. М.: ГУ ВШЭ, 2006, s. 10

əlaqələrin institusionallaşması problemləri, bu əlaqələrin səmərəlilik meyarlarının təyin edilməsi məsələləri araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini dövlət-özəl tərəfdaşlığına dair beynəlxalq və dövlətdaxili sferada meydana çıxan ictimai münasibətlər təşkil edir.

Tədqiqatın predmetini dövlət-özəl tərəfdaşlığı sahəsində normativ hüquqi aktlar, dövlətlərin qanunvericiliyi, Azərbaycan Respublikası qanunvericiliyində təsbit olunan müvafiq normalar təşkil edir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının əsas məqsədi biznes-birliklər vasitəsilə dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibət modellərinin əlamətlərinin və səciyyəvi xüsusiyyətlərinin aşkarlanmasından ibarətdir.

Bu məqsədlərə nail olmaq üçün **tədqiqatın vəzifələri** aşağıdakılar kimi müəyyən edilmişdir:

- dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibətlərin öyrənilməsinə olan mövcud yanaşmaları araşdırmaq;
- mövcud yanaşmaları nəzərə almaqla, dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibət modellərinin tiplərini müqayisə etmək;
- aparıcı xarici dövlətlərdə institusional təcrübəni tədqiq etmək və səciyyələndirmək;
- Azərbaycanda dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibətlərin vəziyyətini, səviyyəsini və səmərəliliyini qiymətləndirmək;
- inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibətlər təcrübəsinin Azərbaycanda tətbiq edilməsi imkanlarını müəyyənləşdirmək;
- Azərbaycanda dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibətlərin modellərinin əsas parametrlərini aşkarlamaq.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını dialektik idrak metodu, tədqiq olunan problemə tarixi, sistemli, kompleks, hədəf yanaşmaları, həmçinin idrakın xüsusi metodları təşkil edir. Eyni zamanda, formal-məntiqi, habelə mücərrədləşdirmə, modelləşdirmə və s. metodlardan da istifadə edilmişdir.

Dissertasiya tədqiqatında dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibətləri biznes-birliklər vasitəsilə nəzərdən keçirməyə imkan verən institusional yanaşmadan istifadə edilir.

Dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibətlərin öyrənilməsinə sosioloji yanaşma tədqiqatda empirik məlumatların toplanması üçün müsahibələr metodundan istifadə etməyə imkan vermişdir.

Bütün bunlar tədqiqatın əsas elmi müddəalarını dürüst müəyyənləşdirməyə, düzgün tədqiqat metodları tətbiq etməyə, əldə edilən nəticələri səmərəli dəyərləndirməyə imkan yaratmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyanın elmi yeniliyi problemin qoyuluşundan irəli gəlir və aşağıdakı **müddəalarda** öz əksini tapır:

1. Bu gün Azərbaycanda özəl strukturlarla dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı münasibətlər modelinin tam olaraq formalaşdığını iddia etmək mümkün deyil. Lakin bu münasibətlərin müəyyən xüsusiyyətləri artıq vardır. Dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında qarşılıqlı münasibətlərdə müxtəlif modellərin bir neçə növü öz əksini tapmışdır. Onlardan ən səmərəlisi biznes-birliklər vasitəsilə qarşılıqlı əlaqələr modelidir.

2. Özəl strukturlarla dövlət orqanları arasında qarşılıqlı fəaliyyətdə tarazlığın pozulması ölkənin inkişafı üçün strateji xəttin seçilməsi məsələsinin həll olunmamış qalması nəticəsində yaranır.

3. Özəl birliklərin yetərincə konsolidasiya olmaması, əməkdaşlıq haqqında qanunvericiliklə təsbit olunmuş sazişlərin yoxluğu dövlət hakimiyyəti orqanlarının müzakirə olunan məsələlərlə bağlı özəl birliklərin fikirlərinə çox zaman məhəl qoymamasının səbəbidir. Assosiasiya və ittifaqlarda birləşmək çox zaman özəl birliyə dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətdə konsolidasiyalı mövqe sərgiləmək imkanı verir.

4. Dövlət hakimiyyəti orqanları ilə özəl strukturların qarşılıqlı inamsızlığı, həmçinin məqsəd və vəzifələrin başa düşülməməsi tərəfdaşlıqda çətinliklərə gətirib çıxarır və əks-əlaqə olmadan kommunikasiya yaradır. Cəmiyyətin gələcək inkişafı və sosial-iqtisadi modernləşməsi üçün səmərəli kommunikasiyanı və qarşılıqlı fəaliyyəti yaratmaq lazımdır.

**Tədqiqatın elmi yeniliyi.** Bu elmi iş mahiyyətcə dövlət hakimiyyəti orqanları və özəl strukturların tərəfdaşlığı üzrə müasir modellərin öyrənilməsi istiqamətində aktual problemlərin Azərbaycan Respublikası kontekstində nəzəri cəhətdən qiymətləndirilməsi üzrə Azərbaycan Respublikasında ilk kompleks tədqiqatdır:

- Azərbaycanda dövlət hakimiyyəti orqanları ilə özəl sektorun tərəfdaşlığının müasir modeli sahə prinsipi və özəl strukturların ölçüsü üzrə formalaşmış mövcud biznes-birliklərə əsaslanır. Lakin əvvəllər onlar mülkiyyət və siyasi təmayülünə görə birləşirdilər;
- Özəl strukturların biznes-birliklərdə birləşməsinin əsasını təşkil edən beş prinsip müəyyən edilmişdir: ölçü, sahə, ümumi hədəflər, özünüreallaşdırma və ərazi/regional prinsip;
- Azərbaycan Respublikasında dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında tərəfdaşlığın mövcud modellərinin təsnifatı təklif edilmişdir: dövlətin təsirinin üstünlük təşkil etdiyi tərəfdaşlıq modeli; "məcburiyyət" modeli; muzdlu (simbiotik) model; sivil model; sistem modeli; "cib" modeli; birbaşa dialoq modeli; münaqişə modeli; Point-to-point lobbiləşdirmə;
- Aparılmış tədqiqat əsasında ilk dəfə olaraq Azərbaycan Respublikasında dövlət hakimiyyəti orqanları ilə özəl strukturlar arasında tərəfdaşlıq modellərinin forma və məzmununu müəyyənləşdirən amil kimi biznes birliklərin rolu haqqında müddəa irəli sürülmüş və əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya dövlət-özəl tərəfdaşlığı ilə əlaqəli ictimai münasibətlərin tənzimlənməsinin məzmunu ilə obyektiv ictimai ehtiyaclar arasında mövcud ziddiyyəti aradan qaldırmaq üçün elmi əsaslandırılmış təkliflərin hazırlanmasından və bu sahədə dövlət təcrübəsindəki meyillərdən ibarət olan elmi problemi həll edir.

Araşdırma zamanı əldə edilən nəticələr və onların əsasında

formalaşmış təkliflər dövlət orqanları və özəl strukturlar arasındakı münasibətlər sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi üçün faydalı ola bilər. Dissertasiyanın materialları ixtisasartırma kurslarında, ali və orta ixtisas məktəblərində idarəetmə və iqtisadiyyat fakültələri üçün dövlət idarəçiliyi üzrə kurslarda, habelə politologiya, fəlsəfə, jurnalistika, psixologiya, sosiologiya və digər sosial-humanitar fakültələrdə bu ixtisas üzrə kursların, ayrı-ayrı bölmələrin işlənilməsində istifadə oluna bilər.

Dissertasiyanın nəticələrindən müxtəlif universitetlərin bir çox fakültələrində, idarəetmə və siyasi institutlar üzrə müəllif mühazirələrində və seminar məşğələlərin aparılmasında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiya mövzusu üzrə Azərbaycan Respublikasında və Rusiya Federasiyasının, Ukrayna Respublikasının nüfuzlu elmi jurnallarında, o cümlədən beynəlxalq elmi konfransın materiallarında müxtəlif dillərdə (Azərbaycan, ingilis və rus) dərc etdirdiyi elmi əsərlərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın strukturu tədqiqatın məqsədləri, vəzifələri, obyekti və predmeti, metodologiyası ilə müəyyənləşir. Tədqiqat işi struktur baxımından giriş, 10 paraqrafı əhatə edən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Giriş 13563, I fəsil 64734, II fəsil 54222, III fəsil 139009, Nəticə 12196, bütövlükdə tədqiqat işinin həcmi 283724 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin elmi araşdırılma dərəcəsi təhlil edilir, tədqiqatın predmeti, məqsəd və vəzifələri, həmçinin metodları müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanır.

Dissertasiyanın **"Dövlət-özəl tərəfdaşlığının təşkili: nəzəri yanaşmalar və siyasi-inzibati resurslar"** adlanan birinci fəsli dörd paraqrafdan ibarətdir. "**Müasir şəraitdə dövlət-özəl tərəfdaşlığının mahiyyəti və konseptual aspektləri"** başlıqlı ilk paraqrafda müəllif tərəfindən dövlət-özəl tərəfdaşlığının əsas xüsusiyyətləri göstərilmiş, bu münasibətlərin başlıca konseptual aspektləri təhlil edilmişdir.

Müasir cəmiyyətdə sosial-siyasi amillərin sosial-iqtisadi və siyasi institutlara dəyişikliklərə təsirinin nəzəri modelləşdirilməsi P.Burdyenin və digərlərinin tədqiqatlarına əsaslanır. Bu əsərlər institusional dinamikanın çoxfaktorlu təhlilinin metodoloji əsaslarını qoymuşdur. Sosial, iqtisadi, siyasi və digər məkanların institusionallaşmasında yeni dinamik və statik parametrlərin aşkarlanması üçün P.Burdye və D.Nortun yanaşmaları xüsusilə əsaslı rol oynayır. Bu metodoloji yanaşmaların tətbiqi bizə belə bir qənaətə gəlməyə imkan verir ki, özəl sektor və dövlət hakimiyyəti orqanları arasındakı münasibətlərin tədqiqinin predmet sahəsi təkcə formal institutların və publik praktikaların öyrənilməsindən ibarət deyil. İqtisadi kommunikasiyalar sferasının hakimiyyət kommunikasiyalarındakı dəyişikliklərə adaptasiyası prosesləri ilə bağlı olaraq bu sferanın daxilində baş verən struktur dəyişikliklərini kompleks şəkildə işıqlandırmağa imkan verən N.Lumanın sistem-nəzəri alətləri qloballaşma şəraitində özəl strukturların tarixi təkamül reallıqlarına münasibətdə perspektivli görünür[11].

Paraqrafdakı fikirlərə əsasən, müxtəlif tipli sosial sistemlərdə özəl sektor və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin struktur bağlılığı institusional olaraq müxtəlif cür təşəkkül tapa bilər. Lakin bir struktur bağlılıq çərçivəsində özəl sahənin rəqabətqabiliyyətliliyinə səbəb olmayan müəyyən institusional məhdudiyyətlərə baxmayaraq, digərində qəfil rəqabət üstünlükləri yarana bilər.

Çağdaş siyasi sistemdə özəl sektor və dövlətin qarşılıqlı əlaqələrinin prinsipial olaraq bir-birindən fərqlənən iki modeli mövcuddur:

- plüralistik

---

[11]Луман Н. Медиа коммуникации. Пер. с нем. А. Глухов, О. Никифоров. Москва: Логос, 2005, 280 с.

• neokorporatist.

Həqiqətdə isə onların heç biri tam halda fəaliyyət göstərmir. Dünyada mövcud olan konkret nümunələr çox zaman hər iki modelin hansısa şəkildə qarışmasından və qovuşmasından ibarətdir. Lakin bütün hallarda bir modelin digəri üzərində üstünlüyünü müşahidə etmək olar.

Plüralistik model metodoloji olaraq ona əsaslanır ki, ictimai sistem və onun hissələri koordinasiya asılılığındadırlar və deməli, bütöv bir sistemin hansısa hissəsinin hakim rolu istisnadır.

Özəl sahə və hakimiyyətin qarşılıqlı fəaliyyətinin plüralistik modeli aşağıdakı mədəni-tarixi xüsusiyyətlər kontekstində formalaşan ingilis-amerikan ənənələrinə əsaslanır: əhalinin əsas hissəsinin sosial-iqtisadi davranışının üstün prinsipi kimi – individualizm. Rəqabət inkişafın zəruri şərti və hərəkətverici qüvvəsi kimi nəzərdən keçirilir. Bütün iqtisadi agentlərin rəqabət aparması üçün şərait yaradılması işgüzar etikanın və tənzimləmə sisteminin əsası sayılır. Rəqabət özü isə iqtisadi inkişafın bazis prinsipi kimi nəzərdən keçirilir, gəlir bütün digər göstəriciləri ötüb keçərək onun uğurluluğunun əsas göstəricisi kimi qəbul olunur.

Korporativizm nəzəriyyəsi Qərb siyasi fikrində bir çox onilliklərdir ki, araşdırılır. Məsələn, G.Hegel ilk dəfə “korporasiya” terminini tətbiq edib. Onun fikrincə, “korporasiya cəmiyyət və dövlət arasında bağlayıcı zümrə kimi çıxış edir və sadəcə, şəxsi maraqları ifadə etməli deyil, həm də dövlətin və cəmiyyətin rifahı naminə xidmət etməlidir”[12].

Lakin korporativizm nəzəriyyəsi məhz XX əsrdə əsaslı şəkildə inkişaf etmişdir. Maraqların təmsil edilməsinin korporativ modelinin F.Şmitter tərəfindən verilən tərifində isə əsas diqqət təzahürün “giriş” parametrlərinə, hər şeydən öncə modelin təşkili və fəaliyyət göstərməsi prinsiplərinə verilmişdir.

Müəllifin fikrincə, XX yüzilliyin 60-70-ci illərində Avropanın bir sıra ölkələrində: Avstriya, Finlandiya, İsveç, Niderland və Norveçdə yeni korporativizm (neokorporativizm) formalaşdı. Neokorporativizmin (“liberal”) özündən əvvəlki korporativizmdən

[12] Гегель Г.В.Ф. Энциклопедия философских наук. В 3 т. Т. 3. Философия духа. – М. : Мысль, 1977, 471 с.

fərqi ondan ibarətdir ki, maraq qruplarının bir növü kimi korporativ assosiasiyaların dövlətlə qarşılıqlı əlaqəsi könüllüdür, hərçənd, onlar dövlət strukturlarına "quraşdırılmışdır". Korporatist dövlət konsepsiyası dövlət strukturlarının həlledici rolu nəzərə alınmaqla, korporatist və dövlət strukturlarının sıx qovuşmasına əsaslanır.

F.Şmitter korporatist (neokorporatist) modeli "maraqların təmsilçiliyi sistemi kimi səciyyələndirir. Onun tərkib hissələri liderlərin seçiminə, tələb və meyillərin artikulyasiyasına məlum nəzarət əvəzinə, onların öz sahələrində təmsilçiliklərinə monopoliya xüsusiyyəti verən dövlət tərəfindən rəsmən tanınmış, yaxud icazə verilmiş (ya da sadəcə yaradılmış) bir neçə xüsusi, məcburi, rəqabətsiz, iyerarxik nizamlanmış, funksional olaraq müxtəlif dərəcələrdən (strukturlardan) təşkil olunmuşdur".

A.Kouson korporativizmi səciyyəvi sosial-siyasi proses kimi təyin edir. "Onun gedişində birləşmiş funksional maraqları təmsil edən təşkilatlar siyasi qərarlar hazırlamaq və qəbul etmək, sonradan isə onları gerçəkləşdirmək məqsədilə dövlət orqanları ilə qarşılıqlı əlaqələrə girirlər"[13].

Birinci fəslin ikinci paraqrafı "**Özəl sektorun fəaliyyətinin dövlət tənzimlənməsinin əsas forma və istiqamətləri"** adlanır. Burada araşdırma obyekti olan özəl sektorun fəaliyyətinin dövlət tərəfindən nizamlanmasında başlıca forma və istiqamətlər şərh edilir.

İddiaçı qeyd edir ki, dövlət və özəl sektor arasında bu və ya digər əməkdaşlıq hər zaman mövcud olmuşdur. Müasir şəraitdə təsərrüfatın mürəkkəb təşkili formaları dövlət iştirakının zəruriliyini aşkarlayır.

Özəl strukturlar və dövlət hakimiyyəti orqanları arasındakı tərəfdaşlıq münasibətləri asanlıqla formalaşmır. Qərbdə bunun üçün bir neçə onillik lazım olmuşdur, Azərbaycanda isə bu, hələ ilkin başlanğıc mərhələsindədir.

Müəllifin fikrincə, müasir Azərbaycanda özəl strukturlarla qarşılıqlı münasibətlərdə dövlətin siyasi rolunun əhəmiyyətli dərəcədə güclənməsini dövlət korporativizminin xüsusiyyəti hesab etmək olar. Ona görə də hazırda dövlətlə yanaşı, sahibkarlıq da inkişafın iqtisadi şərtlərini təmin edən, vətəndaşların rifah halını yüksəldən və yeni iş yerləri yaradan milli iqtisadiyyatın inkişafı üçün hərəkətverici qüvvə

---

[13]Коусон А. Корпоративизм и политическая теория. – М., 2004, 196 с.

qismində nəzərdən keçirilir. Bu isə ümumdünya maliyyə böhranı dövründə, şübhəsiz ki, bu böhranın dəf edilməsi üçün əsas şərtdir.

XX əsrin axırlarında inkişaf etmiş, sonradan isə inkişaf etməkdə olan ölkələrdə infrastruktur obyektlərinin inşası və idarəedilməsi tədricən özəl strukturlara verildi. Bu arada baza mülkiyyət münasibətləri əksər hallarda dəyişmirdi: dövlət özəl sektora yalnız istifadə hüququ verirdi, obyektlərə sahiblik hüququnu isə özündə saxlayırdı. Eyni zamanda, mərkəzi orqanlar və yerli idarəetmə strukturları infrastruktur obyektlərinin vacib həyati təminat sistemləri kimi xüsusi yerini nəzərə alaraq, özəl operatorların fəaliyyətinə tənzimləmə və nəzarət funksiyalarını gücləndirir. Bunun üçün qanunverici və təşkilati-idarəetmə bazasını təkmilləşdirirdilər.

İnfrastruktur kompleksinin müasir idarəetmə prosesinin başlıca ziddiyyəti onunla bağlıdır ki, bir tərəfdən bu obyektlərin özəlləşirilməsi bir çox ölkələrdə sosial-siyasi səbəblərdən – əhalinin ən zəif təbəqələrinin diskriminasiya riskinin güclü olması ilə əlaqədar məqsədəuyğun sayılmır. Digər tərəfdən isə, dövlət və bələdiyyə büdcələrinin kasadlığı, artan sosial öhdəliklər bəzi hallarda infrastruktur ehtiyaclarının ixtisarını şərtləndirir. Bu ziddiyyətin aradan qaldırılmasına infrastruktur obyektlərinin inşası və istismarı məqsədilə özəl sektorun resurslarının cəlbi üzrə xüsusi təşkilati-idarəetmə sisteminin tətbiqi hesabına nail olunur. Bu sistem «üç P» – «Public-Private Partnership» adlandırılmışdır[14].

Nəzəri baxımdan dövlət-özəl tərəfdaşlığı bütün tərəflər – dövlət, biznes və cəmiyyət üçün əlverişlidir. Dövlət bu tərəfdaşlıqda ona görə maraqlıdır ki, öz əmlakının saxlanması və investisiyalaşdırılması üzrə xərclər yükünü biznesə «ötürür» və bununla da həmin əmlakın fəaliyyət səmərəliliyinin artacağına ümid bəsləyir.

Eyni zamanda, dövlət-özəl tərəfdaşlığı vasitəsilə dövlət səmərəsiz təsərrüfat formalarından imtina edir, bir sıra iqtisadi funksiyalarından, məsələn, inşaat, istismar, təmirdən və s. yaxa qurtarır və sosial-iqtisadi problemləri yumşaltmağa nail olur. Özəl sektor uzun müddətə dövlət aktivlərinə sahiblənir, dövlətlə uzunmüddətli müqavilə sayəsində məhsulu üçün zəmanətli bazar "qazanır", yatırımlarının yüksək

[14]Həbibova Z.Z. Abdullayeva M.V. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi. Bakı: Təhsil 2018.200 s.

ehtimalla “geri qayıdışını” qarantiya altına alır və s.

Cəmiyyət isə dövlət-özəl tərəfdaşlığının qurulmasından xidmətlərin keyfiyyətinin yüksəlməsini və qiymətlərin aşağı düşməsini gözləyə bilər. Bir sıra hallarda bu tərəfdaşlıq sayəsində bəzi sosial problemlərin həllinə də nail olunur. Cəmiyyət üçün iqtisadi səmərə, həmçinin infrastruktur obyektlərinin layihələndirilməsi və inşası müddətlərinin azaldılması inşaatın yüksək sürətlə həyata keçirilməsindədir.

Hazırda özəl struktur və dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqələr problemi siyasi sistemlərdə aparıcı yerlərdən birinə yüksəlmişdir. Özəl struktur və dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqələr sistemində siyasi amillərin rolunun üstünlük təşkil etməsi müşahidə olunur, bu zaman dövlət hakimiyyəti orqanları daha üstün mövqe tuturlar.

Birinci fəslin “**Dövlət hakimiyyəti orqanları və özəl strukturların qarşılıqlı münasibətləri modellərinin tipologiyası**” adlı üçüncü paraqrafında qeyd edilir ki, özəl strukturlar və dövlət hakimiyyəti orqanları arasındakı qarşılıqlı əlaqələr sistemi müxtəlif ölkələrdə müxtəlif cür fəaliyyət göstərir. Bu fərqlər cəmiyyət və dövlət arasında münasibətlərin tarixən formalaşmış xarakteri, işgüzar ixtilafların həll olunma ənənələri, əhalinin iqtisadi davranışının üstünlük təşkil edən tipləri, siyasi mədəniyyətin səviyyəsi, müxtəlif institutlar arasında resursların bölüşdürülməsi kimi amillər nəticəsində yaranır[15]. Cəmiyyətdə qarşılıqlı təsir üsullarının və xüsusiyyətlərinin müəyyən nisbəti “qarşılıqlı təsir modeli” anlayışının məzmununu təşkil edir.

Müəllif göstərir ki, özəl strukturlarla dövlət hakimiyyəti orqanları arasındakı münasibətlər ayrı-ayrı ölkələrdə müxtəlif cürdür. Bu fərqlərin səbəbləri çoxdur. Dövlət və özəl sektorun qarşılıqlı təsir modelləri qismində ideal (nəzəri), milli, normativ və real institusional modellər konkret şəraitlərdə qarşılıqlı əlaqələrin ümumi xüsusiyyətlərini əks etdirir. Qarşılıqlı əlaqələrin müxtəlif alimlər tərəfindən təklif edilən ayrı-ayrı modelləri hakimiyyətin və özəl

[15]Гайнутдинов Р.И., Модели взаимодействия бизнеса и государства в глобализирующемся мире: сравнительный анализ // Проблемы современной экономики, N 1/2 (17/18), 2006.

sektorun arasında mövcud olan münasibətlərdə korrupsiyanın və preferensializmin inkişafının qarşısını alır, sərmayələrin cəlb olunması ilə ümumi maraqlara əsaslanan əməkdaşlığa önəm verir, hakimiyyətin və özəl sektorun qovuşmasını nəzərdə tutur.

Birinci fəslin "**Dözlət-özəl tərəfdaşlığında risklər**" adlı sonuncu paraqrafı dövlət-özəl tərəfdaşlığının müxtəlif sahələrində (nəqliyyat, tikinti, kommunal xidmətlər, telekommunikasiya və s.) yarana biləcək özünəməxsus risklərin qiymətləndirilməsinə həsr edilmişdir.

Dövlət-özəl tərəfdaşlığında yüksək effektivlik vasitələri kimi çox az olan ictimai resurslardan səmərəli istfadə kritik bir məsələdir və əksər hökumətlər nəzərdə tutduqları məqsədlərdən çox geri qalır. Buna səbəb, dövlət orqanlarının özünəməxsus təşkilati prosesləri daxilində strukturlaşdırılmış səmərəlilik üçün stimullar azdır və ona görə də infrastrukturu səmərəli şəkildə qurmaq və yönləndirmək olduqca zəifdir. Bunlara baxmayaraq, özəl sektor tərəfdaşları investisiya və proseslərdə səmərəliliyin artırılmasına əsasən əldə edilən mənfəəti ən yüksək həddə çatdırmaq məqsədilə investisiya və müqavilə bağlamaq fikrinə düşürlər. Əgər dövlət özəl tərəfdaşları nəzərdə tutulan planları yerinə yetirilə biləcək formada strukturlaşdırarsa, infrastruktur xidmətlərinin səmərəliliyi gözlənilən şəkildə artacaqdır. Göstərilən xidmətlərin və əməliyyatların mənfəət hesablarını ödədikdən sonra, bu kontekstdə davam edərsə, hətta onların sonrakı əməkdaşlıqlarında da şanslarını əsaslı şəkildə artırar. Nəzərdə tutulan yanaşma düzgün tətbiq olunarsa, hökumətlər üçün daha az pul xərcləri və istehlakçılar üçün isə daha yaxşı və daha ucuz xidmətlər əldə edilə bilər.

Dövlət-özəl tərəfdaşlıq layihələrinin əsas faydalarından biri də layihədə yaranacaq risklərin həmin riski ən yaxşı şəkildə qaldıra biləcək tərəfin üzərində olmasıdır. Dövlət-özəl tərəfdaşlığı dövlət sektorundan özəl sektora həqiqi risklə əlaqələndirildiyindən, tərəfdaşlar üçün riskləri aralarında doğru müəyyənləşdirmək və bölüşdürmək böyük önəm daşıyır. Dövlət-özəl tərəfdaşlıqları dövlət tərəfindən maliyyələşdirilmir. Bu səbəbdən də dövlət investisiyaları ilə qarşılaşdırıldıqda daha riskli investisiyalar sayılır. Buna görə də maliyyə böhranı dövründə dövlət-özəl tərəfdaşlığı böhrandan daha çox təsirlənmiş investisiya modeli olmuşdur. Özəl sektor investorları

risklərin proqnozlaşdırıla bildiyi və şərtlərin müəyyənləşdirildiyi bazarlara investisiya yatırılmasına diqqət edirlər. Risklərin artması investisiya üçün artıq gəlir tələb edir. Bəzi qeyri-müəyyən olan məsələlərin və risklərin azaldılması dövlət sektorunda daha az xərcə, özəl sektorda daha çox investisiya əldə etməyə səbəb olacaqdır. Bu da hər iki tərəf üçün daha təhlükəsiz və əlverişli investisiya mühiti yaradır. Beləliklə, riskərin azaldılması həm dövlət sektorunun, həm də özəl sektorun lehinə olur.

Tərəfdaşlıqda ən yaxşı risk paylaşımı layihələrdəki risklər geniş şəkildə təhlil edildikdən sonra mümkündür. Risklərin dövlət sektorundan özəl sektora həvalə edilməsi layihələrin dəyərini yüksək dərəcədə artırır, həmçinin xərc səmərəliliyini ortadan qaldırır. Buna görə də, dövlət-özəl tərəfdaşları ən yaxşı risk bölgüsünü o zaman etmiş olur ki, hansı tərəf riski daha yaxşı idarə edə bilər və ya həmin riskin yaratdığı xərc hansı tərəf üçün daha azdırsa, həmin tərəf riski öz üzərinə götürür. Tərəfdaşlar bir çox risklərə məruz qalır, bunlara misal olaraq: siyasət, müqavilə, texnologiya, bazar, maliyyə riskləri və s. göstərmək olar. Bunlara əlavə olaraq, təbii fəlakətlər və fövqəladə hadisələr də risk yaradır.

Dissertasiyanın ikinci fəsli **“Beynəlxalq aləmdə dövlət-özəl tərəfdaşlığının institusional təcrübəsi”** adlanır. Fəslin **“ABŞ və Böyük Britaniyada dövlət-özəl tərəfdaşlığının plüralist modeli”** başlığı ilə gedən birinci paraqrafında qeyd edilir ki, dövlət və özəl strukturlar arasındakı qarşılıqlı əlaqələrə iqtisadi sistemlərin milli xüsusiyyətləri ciddi təsir göstərir. Özəl strukturlar və dövlət hakimiyyəti orqanları arasındakı qarşılıqlı münasibətlər, əsasən, ölkənin iqtisadi sistemindən asılıdır. İqtisadi maraq qruplarının dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqələri funksional nümayəndəlik vasitəsilə həyata keçirilir.

Müqayisəli siyasi-iqtisad elmi bazarın iki əsas modelini təyin edir:

1.liberal bazar iqtisadiyyatı «liberal’ market economies» (LMEs) və ya qeyri-koordinasiyalı bazar iqtisadiyyatı;

2.koordinasiyalı bazar iqtisadiyyatı «coordinated market economies» (CMEs).

Bu təsnifat beş müxtəlif istiqamət üzrə səylərin koordinasiyası

üzərində qurulmuşdur: istehsal münasibətləri, peşə hazırlığı, korporativ idarəetmə, firmalararası münasibətlər, əmək münasibətləri. Liberal bazar iqtisadiyyatı – bazar tərəfindən istiqamətlənir və bazar mübadiləsinə əsaslanır, subsidiardır; koordinasiyalı bazar iqtisadiyyatı isə – dövlət tərəfindən aparılır və inama əsaslanır, kommunitardır.

Bundan başqa, xüsusi, üçüncü qrupu - «state-influenced market economies» (SMEs) adlı bazar iqtisadiyyatını da – iqtisadiyyatın dövlət tənzimlənməsinə əsaslanan etatist qrupu da fərqləndirmək olar[16]. Onların fərqi təkcə qarşılıqlı əlaqələrdə dövlətin iştirak səviyyəsində deyil, həmçinin bu prosesin işgüzar dairələrin, dövlətin və həmkarlar ittifaqlarının bütün qarşılıqlı əlaqələr məntiqinə necə təsir etdiyinə əsaslanır.

Müəllif göstərir ki, Birləşmiş Ştatların siyasi sistemi çox unikaldır: onun üçün dövlətin nisbətən zəifliyi və maraq qruplarının konfiqurasiyasının çevikliyi səciyyəvidir. ABŞ-da tətbiq edilən plüralist modelin müsbət xüsusiyyətləri - hakimiyyət və özəl strukturların qarşılıqlı fəaliyyəti infrastruktur və iqtisadi məsələlərin həllinə əhəmiyyətli təsir göstərir, özəl sektorun ayrı-ayrı maraqlarının ifadəsinin ayrılmaz alətidir və bütövlükdə cəmiyyətin proqressiv inkişafını təşkil etməyə imkan verir. Tərəflərin bərabərliyi əsasında əməkdaşlığın qarşılıqlı sərfəli xarakteri, maraqların ifadəsinin demokratik prinsipləri və hüquq və bərabərliyin qanun qarşısında prioritetliyi plüralist modelin səciyyəvi cəhətləridir. Tərəfdaşlığın Amerika modeli yüksək texnologiyaların sürətli inkişafı sayəsində bütün dünyaya yayılır və səmərəli siyasi və ideoloji instrumentə çevrilir[17].

Paraqrafda qeyd edilir ki, Böyük Britaniyada özəl strukturların və hakimiyyətin qarşılıqlı təsiri liberal xarakter daşıyır və daimi hökumət

---

[16]Schmidt A.Vivien, Bringing the State Back Into the Varieties of Capitalism And Discourse Back Into the Explanation of Change // Center for European Studies Program for the Study of Germany and Europe Working Paper Series 07.3 (2007) // http://aei.pitt.edu/9281/1/Schmidt.pdf; Nölke Andreas, Vliegenthart Arjan, Enlarging the Varieties of Capitalism: The Emergence of Dependent Market Economies in East Central Europe // World Politics (2009), №61, p. 670-672.

[17]Кирченко К.Г. Формы взаимодействия органов управления и частного сектора: теоретические аспекты и зарубежный опыт // Известия Гомельского государственного университета им. Ф. Скорины. 2013. № 3 (78), с. 152-156

konsultasiyaları əsasında və parlament lobbiçiliyi vasitəsilə qurulur. Özəl strukturların Britaniya icra hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyəti daimi konsultativ komitələr şəbəkəsi vasitəsilə qurulur. Nazirlik və idarələr hakimiyyətə loyal hesab edilən aparıcı sahibkarlıq birliklərinin və korporasiya nümayəndələrinin iştirakı ilə ixtisaslaşmış komitələr yaradırlar. Bu cür loyallıq, adətən, hökumət tərəfindən edilən sosial təşəbbüslərin dəstəklənməsində ifadə olunur.

Fəslin "**Almaniya, Avstriya və Niderlandda təcrübədən keçmiş neokorporatizm**" adlanan ikinci paraqrafında AFR, Avstriya və Niderlandda qarşılıqlı münasibətlərin neokorporativ modeli barədə məlumat verilir. Bu modeldə işəgötürənlərin təşkilatı hökumətlə həmkarlar ittifaqlarının institusional qarşılıqlı əlaqə sisteminin bir hissəsini təşkil edir. Güclü biznes assosiasiyalarının mövcudluğu, qrup maraqlarının, baş assosiasiyaların nümayəndəliklərinin yüksək mərkəzləşmə səviyyəsi özəl struktur və dövlətin qarşılıqlı münasibətlərində əsas vasitəçilərin maraq və rolunun təmsilçiliyində faktik inhisara malikdir. Sosial tərəfdaşlar arasında üçtərəfli danışıqlar yolu ilə qiymətlərin səviyyəsi, əmək haqqının artırılması, pensiya təminatının yaxşılaşdırılması kimi məsələlərlə bağlı sazişlər bağlanılır. Kollektiv müqavilələr bir korporasiya və bir ittifaq arasında deyil, milli işəgötürənlər təşkilatları vasitəsilə bir qayda olaraq milli səviyyədə baş verir. İsveç, Norveç, Hollandiya, Finlandiya və Avstriyada korporativizmin yeni istiqaməti - neokorporativizm formalaşmışdır. Bu modelin səciyyəvi xüsusiyyəti dövlətin və korporativ assosiasiyaların könüllülük əsasında tərəfdaşlıq etməsidir.

Elmi işin üçüncü fəsli "**Azərbaycanda özəl sektorun dövlətlə tərəfdaşlığının müasir modeli**" adlanır, dörd paraqrafdan ibarətdir. Fəslin "**Azərbaycanda özəl strukturların və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti**" paraqrafında göstərilir ki, empirik tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında özəl strukturlarla dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin vəziyyətini, səviyyəsini və səmərəliliyini təhlil etmək, dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətinin müasir inkişaf mərhələlərində özəl birliklərin rolunun və yerinin xarakteristikasını araşdırmaq olmuşdur. Eyni zamanda, özəl birliklər vasitəsilə özəl strukturların qarşılıqlı fəaliyyət modelini nəzərdən keçirməyə və

təqdim etməyə cəhd göstərilmişdir.

Tədqiqatçılar əldə olunan nəticələrin müqayisəli təhlilini aparmış, bu təcrübənin Azərbaycanda tətbiqinin milli iqtisadiyyatın inkişafına təsiri ilə bağlı proqnoz və tövsiyələr təqdim etmişlər[18].

Dövlət-özəl sektor əməkdaşlığının Azərbaycanda mövcud vəziyyəti, çatışmayan tərəfləri və üstünlükləri, iqtisadiyyatın hansı sahələrinin bu prinsiplərə cəlb olunması kimi məsələlər də araşdırılmışdır. Neft qiymətlərinin aşağı həddə olduğu və qeyri-neft sektorunun inkişaf etdirilməsinin hədəf qoyulduğu bir dövrdə dövlət-özəl sektor əməkdaşlığının ölkəmizdə səmərəli tətbiqi və bunun üçün əlverişli mühitin yaradılması daim diqqət mərkəzində olmalıdır.

Hazırda post-münaqişə ərazilərinin bərpası, bu regionların iqtisadi inkişafına yönəlmiş mühüm təsərrüfat layihələrinin gerçəkləşməsinə kömək edə bilən sərmayələrin cəlb olunması üçün dövlətin həmin ərazilərdə şərait yaratması Azərbaycanın dövlət siyasətinin ən prioritet istiqamətlərindən birini təşkil edir.

Özəl strukturlar və dövlət hakimiyyəti orqanları arasındakı tərəfdaşlıq münasibətləri asanlıqla formalaşmır. Qərbdə bunun üçün bir neçə onillik lazım olmuşdur, Azərbaycanda isə bu, hələ ilkin başlanğıcdadır.

Paraqrafda qeyd edilir ki, layihələrin uğurlu həyata keçirilməsi üçün aşağıdakı amilləri nəzərə almaq lazımdır:

- Dövlət sektorunun tələbləri haqqında bazara aydın məlimat verilməsi və buradakı iddiaçılara seçim meyarlarının göstərilməsi;
- Tenderlər üçün real olan son tarixlərin müəyyənləşdirilməsi;
- Layihələrin icrası zamanı şəffaflığın tam təmin edilməsi;
- Beynəlxalq maliyyə təşkilatlarının iştirakı;
- Layihələrin maliyyələşdirilməsi üçün istiqrazların buraxılması.

Fəslin "**Azərbaycan Respublikasında özəl strukturların müasir vəziyyətinin qiymətləndirilməsi: perspektivlər və mənfi meyillər**" adlı ikinci paraqrafında göstərilir ki, müasir Azərbaycanda özəl strukturlarla qarşılıqlı münasibətlərdə dövlətin siyasi rolunun

[18] Azərbaycan 2020: inkişafın yeni hədəfləri. / M.N.Ələsgərov [et al.]; Yeni Azərbaycan Partiyasının İcra Katibliyi.- Bakı: Azərnəşr, 2012.- 848 s.

əhəmiyyətli dərəcədə güclənməsini dövlət korporativizminin xüsusiyyəti hesab etmək olar. Ona görə də hazırda dövlətlə yanaşı, sahibkarlıq da inkişafın iqtisadi şərtlərini təmin edən, vətəndaşların rifah halını yüksəldən və yeni iş yerləri yaradan milli iqtisadiyyatın inkişafı üçün hərəkətverici qüvvə qismində nəzərdən keçirilir. Bu isə ümumdünya maliyyə böhranı dövründə, şübhəsiz ki, bu böhranın dəf edilməsi üçün əsas şərtdir.

Tədqiqat işində dolğun informasiyalar toplamaq məqsədilə işgüzar dairələrin nümayəndələri, özəl strukturların, biznes-birliklərin və dövlət hakimiyyəti orqanlarının rəhbərləri və əməkdaşları ilə vahid sual kitabçaları üzrə aparılan ətraflı müsahibələr seriyasından istifadə edilmişdir.

Ümumilikdə, 15 müsahibə aparılmışdır. Məlumatların obyektivlyi üçün əlavə tədqiqat vəzifələri qismində özəl birliklərin fəaliyyəti, onların dövlət idarələri ilə qarşılıqlı əlaqəsi və özəl strukturların təmsilçilərinin məsləhət və müşavirə orqanları sistemində iştirakı barədə açıq mənbələrdən məlumatların toplanması və təhlili də tərəfimizdən həyata keçirilmişdir.

Bu məlumatlardan müsahibə materiallarının təfsirində və tamamlanmasında, həmçinin özəl strukturların dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətinin vəziyyəti və inkişaf meyilləri barədə ümumi qənaətlərin ifadə edilməsində istifadə edilmişdir. Respondentlərin verdikləri cavablardan iqtisadiyyata dövlət müdaxiləsinin iki əsas formasının mövcudluğu təsdiq olunur: birbaşa müdaxilə və dolayı müdaxilə.

Dövlət mülkiyyətinin genişlənməsi vasitəsilə birbaşa müdaxilə və qanunyaradıcılığı və istehsal müəssisələrinin idarə olunması vasitəsilə birbaşa müdaxilələr mövcuddur. Dövlət – bazar münasibətlərinin iştirakçısıdır və iqtisadiyyatın rəqabət sektorunda işləyən şirkətlərə sahib olmaq hüququna malikdir. Dövlətin iqtisadiyyatın rəqabət sektorunda iştirakı ola bilər, mümkündür, lakin onun hansısa müvəqqəti üfüqləri olmalıdır.

Dolayı müdaxilə iqtisadi fiskal siyasətin, pul-kredit siyasətinin müxtəlif üsullarının köməyi ilə həyata keçirilir və həm yerli şrikətlərin rəqabət potensialının yüksəldilməsi aləti kimi, həm də inhisarçılıq vəziyyətindən sui-istifadə risklərinin məhdudlaşdırıcısı kimidir.

Dövlətin iqtisadiyyata müdaxiləsi sualını cavablandırarkən, respondentlər əksər hallarda belə hesab etmişlər ki, dövlət özəl strukturların işinə fəal müdaxilə etməlidir. Dövlətin iqtisadiyyata müdaxiləsi həm müsbət, həm də mənfi xarakterli ola bilər.

Müsbət müdaxilə nöqteyi-nəzərindən, bir tərəfdən, dövlət fəal oyunçu olmalı, bazarda sivil münasibətlərin formalaşmasına və beynəlxalq arenada Azərbaycanın mövqelərinin möhkəmlənməsinə kömək etməlidir. Digər tərəfdən, dövlət hər bir şirkətin biznesinə nəzarət etməməlidir, mane olmamalıdır, əksinə, bazarda sivil münasibətlərin inkişafına şərait yaratmalıdır.

Üçüncü fəslin "**Müasir Azərbaycan iqtisadiyyatında özəl birliklərin rolu və yerinin xüsusiyyətləri**" adlı üçüncü paraqrafında sahibkarların özəl birliklərdə iştirak miqyasının qiymətləndirilməsi aparılmış, dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərdə özəl birliklərin nə qədər səmərəli mexanizm olmaları aydınlaşdırılmışdır.

Azərbaycanda azad məhkəmə sisteminin fəaliyyət göstərməsi və ümumilikdə, hüquqi-demokratik dövlət quruculuğunda əldə edilmiş həlledici uğurlar aqrar-sənaye innovasiyaları üzrə dövlət - özəl bölmə tərəfdaşlığı layihələrinin tənzimlənməsinin hüquqi bazasının sürətlə təkmilləşdirilməsi üçün əlverişli şərait yaratmışdır"[19].

---

[19] R.K. İsgəndərov, F.B. Rzayev. Aqrar-sənaye innovasiyaları üzrə dövlət-özəl bölmə tərəfdaşlığı layihələrinin tənzimlənməsi sisteminin xarakteristikası. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 3 (33) s.41-50
https://agroeconomics.az/pdf/3.pdf

Tədqiqat işində dövlət hakimiyyəti orqanları tərəfindən özəl birliklərə olan münasibət məsələsinə diqqət yetirilmişdir. Müəllif özəl birliklərin inkişafında keyfiyyət meyillərinin qiymətləndirilməsi məsələsini həll etmiş, onların dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqəsinin gedişində hansı hədəfləri güddüyünü, hazırda özəl birliklər və dövlət hakimiyyəti orqanları arasında kommunikasiyanın nə qədər səmərəli olmasını təhlilə çəkmişdir. Sorğuların gedişində özəl birliklər vasitəsilə özəl strukturlarla dövlət hakimiyyəti orqanları arasındakı qarşılıqlı münasibətlərin müvafiq institusional əsaslarının formalaşdırılması istiqamətində başlıca mexanizmləri aşkarlamaq cəhdləri edilmişdir.

Hazırda Azərbaycan Respublikasında sahibkarların müxtəlif qruplarını ən müxtəlif əlamətlər üzrə birləşdirən çoxlu sayda təşkilatlar formalaşmışdır. Ərazi əlamətlərinə görə onları yerli, regional və mərkəzi təşkilatlara bölmək məqsədəuyğun olar.

Sonuncu fəslin "**Azərbaycanda özəl strukturlarla dövlət hakimiyyəti orqanları arasındakı qarşılıqlı münasibətlərin vəziyyətinin, səviyyəsinin və səmərəliliyinin qiymətləndirilməsi**" adlı dördüncü paraqrafında ölkəmizdə özəl strukturların və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin formalaşmasında əsas amillər təhlil edilir, özəl strukturların dövlət hakimiyyəti orqanları ilə uğurlu qarşılıqlı əlaqəsində ən əhəmiyyətli problemlər göstərilir. Müəllifin fikrincə, hazırda Azərbaycanda özəl strukturlarla hakimiyyət arasında qarşılıqlı münasibətlər modelinin tamamilə formalaşdığını iddia etmək mümkün deyil. Lakin bu münasibətlərin müəyyən xüsusiyyətləri hər halda yaranmışdır.

Qarşılıqlı əlaqələrin qeyri-formal mexanizmləri sistemi rəsmi institutlarla müqayisədə idarəetmə hədəflərinə nail olmağın ən səmərəli vasitəsidir.

Həmçinin, paraqrafda vurğulanmışdır ki, özəl strukturlarla dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı maraqlar varsa, onların qarşılıqlı münasibətləri səmərəli olacaq. Hakimiyyət özəl strukturları, özəl strukturlar da hakimiyyəti dəstəkləyir. Bu zaman onlar çox böyük müvəffəqiyyətlə irəliləyirlər. Digər tərəfdən, səmərəlilik anlayışını və qiymətləndirmə meyarlarını təyin etmək yetərincə çətindir. Hər bir hal üçün bu meyarlar dəyişəcək və obyektiv və subyektiv qiymətlərdən asılı olacaq.

Dissertasiya işinin **Nəticə** hissəsində müəllif tərəfindən bütün

təkliflər ümumiləşdirilir, habelə görülmüş iş əsasında nəzəri və praktik tövsiyələr irəli sürülür.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində əz əksini tapmışdır:**

1. Geostrategiya № 05(53), İSSN 2664-4975, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, Azərbaycanda Dövlət xidmətləri sektorunda islahatlar (səh: 92-97), sentyabr-oktyabr 2019
2. Dövlət İdarəçiliyi, Nəzəriyyə və Təcrübə,№2(70), Özəl sector və Dövlətin qarşılıqlı fəaliyyətinin öyrənilməsinə dair nəzəri yanaşmalar (səh: 281-286), 2020
3. İnsan və Biosfer (MaB, UNESCO), Azərbaycan Milli Kominəsinin Əsərləri, Ekoloji Sivilizasiya Davamlı inkişaf Ətraf mühit, buraxılış 14, İnsan potensialının inkişafı milli tərəqqinin faktoru kimi: İnsan potensialına investisiya qoyuluşlarını əsas istiqamətləri (səh:101-114), 2019
4. Doktorantların və gənc tədqiqatçıların XXlV resbublika elmi konfransının materialları, Dövlət hakimiyyəti və özəl sectorun qarşılıqlı fəaliyyətinin bəzi xüsusiyyətləri (səh:188-190), 2021
5. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçəlik Akademiyası, Dövlət idarəçiliyində islahatların yeni mərhələsi mövzusunda doktorant və dissertantların elmi-praktik konfransı materialları, Dövlət özəl tərəfdaşlığı: Nəzəri və tarixi aspektlər (səh:137-144), 2020
6. Politicus науковий журнал, The main forms and directions of state regulation of the private sector (səh:14-18), 2022
7. 2 nd International Economics and Business symposium, Proceeding And Abstract Book, Kamu-Özel ortaklığı: Özel sektör faaliyetlerine ilişkin devlet düzenleme yöntemleri ve alanları (səh: 267-273), 2021
8. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçəlik Akademiyası, Nəzəriyyə və Təcrübə, №4(80), Dövlət-Özəl tərəfdaşlığında risklərin əsas xüsusiyyətləri (səh: 225-231) 2022

Dissertasiyanın müdafiəsi "29" noyabr 2023-cü il tarixində saat $11^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı:A5
Həcm: 40298
Tiraj: 80